# Polad kimi qəhrəman...

**Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etdiyi təxminən 30 il ərzində Azərbaycan Ordusunun sıralarında canlarını Vətənin azadlığı uğrunda fəda etməyə hazır olan minlərlə oğul yetişdi. Onlar Qarabağ uğrunda döyüşlərin başlandığı ilk günlərdən cəbhənin ön sıralarında oldular, sinələrini düşmən silahlarının qarşısında canlı siperə çevirdilər. Belə mərd və vətənpərvər oğullarımızdan biri də general Polad Həşimov oldu.**



Bu gün Polad Həşimovun adını Azərbaycanda tanımayan yoxdur. Bu şərəfi mərhum general özünün qəhrəmanlığı ilə qazana bilmişdi. O, daim ön cəbhədə, ən təhlükəli mövqelərdə olur, düşmənə sərrast zərbələrlə cavab verirdi.

## Təqdimat

Polad Həşimov 1975-ci ilin yanvarın 2-də Qəbələ rayonunun Vəndam kəndində anadan olmuş, sonradan ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçmüşdü. Orta təhsilini Sumqayıt şəhərində əvvəlcə 28 saylı, sonra 34 saylı məktəbdə almış, daha sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbi bitirərək peşəkar hərbçi kimi milli ordumuzun sıralarına qoşulmuşdu.

Polad Həşimov 2003-cü ildə mayor rütbəsində Prezident Heydər Əliyevin sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı, 6 il sonra, 2009-cu ildə isə Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunmuşdu. 2014-cü il iyunun 25-də III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən Polad Həşimov, 2016-cı ilin Aprel döyüşlərində göstərdiyi şücaətə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə mükafatlandırılmışdı.

Təsadüfi deyildi ki, təcrübəli hərbçi Polad Həşimov 2016-cı ilin 2-4 aprelində cəbhə boyu baş vermiş döyüşlər zamanı Talış kəndi uğrunda gedən döyüşləri aparan 1-ci Ordu Korpusunun qərargah rəisi olmuş, döyüş vaxtı yaralanmışdı. Nəhayət, 2019-cu il iyunun 25-də, cəmi 44 yaşında Polad Həşimova general-mayor ali hərbi rütbəsi verilmişdi. O, daha sonra Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun qərargah rəisi vəzifəsinə təyin olunmuşdu.

## Məşhur Tovuz döyüşləri

Generalın qəhrəmanlıqla şəhid olmasından Azərbaycan xalqı 2020-ci il iyulun 14-də Tovuz istiqamətində baş verən şiddətli döyüşlər zamanı xəbər tutdu. Hazırda Tovuz döyüşləri kimi xatırlanan həmin hadisə Azərbaycanın son illər hərb tarixində mühüm əhəmiyyətə malik əməliyyat kimi qalmaqdadır. Çünki məkrli düşmən Tovuz istiqamətində Azərbaycana böyük bir yara vurmaq, ölkəmizin ərazisindən keçən neft-qaz kəmərlərini partlatmaq, bununla da Azərbaycanın beynəlxalq öhdəliklərə sadiq ölkə imicini ləkələmək istəyirdi.

Döyüş 2020-ci il iyulun 12-də günorta saatlarında başlandı. Ermənistan Silahlı Qüvvələrinin bölmələri dövlət sərhədinin Tovuz rayonu sahəsində Dövlət Sərhəd Xidmətinin mövqelərini artilleriya qurğularından atəşə tutdu. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri, təbii ki, cavab tədbirləri gördü. Nəticədə Ermənistan Ordusunun hücum cəhdinin qarşısı alındı və təcavüzkar ordu geri oturduldu. Həmin döyüşlərdə general Polad Həşimovun böyük hərbçi məharəti üzə çıxdı. Onun rəhbərlik etdiyi hərbi hissə yaxşı planlaşdırılmış erməni hücumunun qarşısını böyük mərdlik və qəhrəmanlıqla ala bildi.

İyunun 12-dən 13-nə keçən gecə də gərgin döyüşlər getdi. 3-cü Ordu Korpusunun Qərargah rəisi Polad Həşimovun da qatıldığı hərbi toqquşmalarda artilleriya və minaatanların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələri bölmələrinin atəşi ilə düşmən Ordusunun dayaq məntəqəsi, artilleriya qurğuları və canlı qüvvəsi məhv edildi. İyulun 13-də günorta saatlarında Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən cəza tədbirləri davam etdirildi. Nəticədə Ermənistan Silahlı Qüvvələrinin atəş mövqeləri, 20 nəfərdən çox şəxsi heyət, tabor qərargahı və digər hərbi hədəflər Azərbaycan Ordusunun dəqiq atəşi ilə darmadağın edildi.

İyulun 13-dən 14-nə keçən gecə ərzində də şiddətli döyüşlər davam etdi. Gecə döyüşləri zamanı Ermənistan Silahlı Qüvvələrinin müxtəlif təyinatlı hərbi nəqliyyat vasitəsi, döyüş vasitələri, müdafiənin dərinliyində yerləşən ehtiyatlar və canlı qüvvə məhv edildi.

## Bir general itirdik

Döyüşlərdə ermələrin istər canlı qüvvə, istərsə də hərbi texnika sarıdan itkiləri kifayət qədər çox idi. Bu uğurlu əməliyyat bütün ölkəyə səs saldı. Eyni zamanda, general Polad Həşimovun şöhrəti geniş yayıldı. Amma...

Amma... O zaman yayılmış məlumatlara görə, xəyanət öz işini görmüşdü və döyüşlərin birində Polad Həşimovun olduğu mövqe ermənilər tərəfindən vuruldu. Bunun nəticəsində general özü, eləcə də həmin mövqedə olan polkovnik İlqar Mirzəyev və mayor Anar Nazirov qəhrəmancasına həlak oldular.

Polad Həşimovun həlakı ordumuz, eləcə də xalqımız üçün böyük itki oldu. Onun şəhidlik xəbərini ictimaiyyətə Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev dərin hüznlə çatdırdı. İyulun 14-də general-mayor Polad Həşimovun nəşi əvvəlcə doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsinə, sonra isə yaşadığı Sumqayıt şəhərinə gətirildi. General iyulun 15-də II Fəxri Xiyabanda, polkovnik İlqar Mirzəyevlə yanaşı dəfn olundu.

## Dəyərli xidmətə dəyərli qiymət

Prezident İlham Əliyev şəxsən generalın həlak olması xəbərindən sarsılmışdı. Dövlət başçısı dərhal qəhrəmancasına şəhid olmuş generalın anası Səmayə Həşimova ilə telefonla danışdı və ailə üzvlərinə dərin hüznlə başsağlığı verdi. 2020-ci il dekabrın 9-da Prezident İlham Əliyevin sərəncamı ilə Polad Həşimova Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verildi.

2020-ci ildə Qəbələ şəhərində Şəhidlər xiyabanının yerləşdiyi küçəyə Polad Həşimovun adı verildi. Sumqayıtda da Polad Həşimov küçəsi var. Generalın adı Türkiyədə də əbədiləşdirildi. Osmanqazi rayonunun Dəmirtaş bölgəsində salınan yeni parka da Polad Həşimovun adı verildi.

Qəhrəman generalın adı bu gün xalqımızın dilində əzbərdir. İnanırıq ki, onun qəhrəmanlığı gələcək nəsillər tərəfindən də iftixarla anılacaq.

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**